# “MƏSABİH-ƏS-SÜNNƏ” ƏSƏRİNİN ƏLYAZMASI NÜSXƏLƏRİNİN MÜASİR AZƏRBAYCAN ƏRƏBŞÜNASLIĞINDA YERİ

***Gülağa İsmayılov,***
*AMEA Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutunun doktorantı*
ismayilov.gulaga@mail.ru

## XÜLASƏ

Məlumdur ki, əlyazma əsərlərin tədqiqi keçmişdən-günümüzə qədər hər zaman diqqət mərkəzində olmuşdur. Qədim əlyazma nüsxələri mənbəşünaslıq baxımından araşdırmaların ayrılmaz hissəsidir. Buna görə də İslam alimləri yaşadıqları dövrdə həməsrlərinə mövzuların təqdim edilməsi zamanı uğurlu nəticə əldə etmək üçün dini mövzularlarla yanaşı əlyazma nüsxələrini də diqqətlə araşdırmış və təhlil etmişlər. Digər tərəfdən, hər dövrdə ərəbdilli əlyazmaların araşdırılması, onların dini və onun problemlərinə münasibətləri əks etdirir. Din, xüsusən də İslam dininin tədqiqi bütün hallarda ərəbdilli qədim əlyazmalar üzərində formalaşmışdır. Müasir dövrdə də dinin araşdırılması və öyrənilməsi metodları ərəbşünaslar üçün genişdir. Biz bu məsələyə əlyazma əsərlərinin tədqiqatı yolu ilə toxunmaq istərdik. Şübhəsiz ki, qədim əlyazmalar orijinal miras hesab olunaraq bütün mövzuların mənbəyi sayılır.

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda mövcud olan İmam Bəğavinin “Məsabih-əs-sünnə” əsəri də tədqiqata cəlb etmək baxımından xüsusui əhəmiyyət kəsb edir. İmam Bəğavinin əhəmiyyətli əsərlərindən biri, şübhəsiz ki, etibarlı hədis qaynaqlarından sənədləri çıxararaq seçdiyi hədislərdən ibarət “Məsabih əs-sünnə”dir. Tanınmış Avropa şərqşünası Brokelmanın bu əsərinin elm dünyasında çox böyük əhəmiyyətinə toxunaraq, Bəğavinin islam dünyasındakı şöhrətinin “Məsabih əs-sünnə” adlı əsərinə borclu olduğunu demişdir (Sancaklı, 1996, 48).

Bəğavinin müxtəlif qaynaqlardan toplamış olduğu hədisləri bir araya gətirməklə yazdığı bu əsərin bənzərlərini hədis tarixində İbnul-Əsir əl-Cəzərinin (h/606, m/1209) “Camiul-üsul”, Nəvəvinin (h/676, m/1277) “Riyazüs-salihin” adli əsərlərində də görürük. Katib Çələbi (h/1067, m/1677) “Yığma mahiyyətində yazılan əsərlərin ən gözəli

Bəğavinin “Məsabih” adlı əsəridir”, – demiş və “Çünki onun tərtibi çox gözəldir. Hədislər yerli-yerində yığılmışdır. Bir başqası hər hansı bir babın yerini dəyişdirməyə çalışsa, Bəğavidən daha uyğun bir yerə qoymazdı”, – söyləyərək əsəri təriflәyir (Katip Çelebi, 1971, 1701-1702).

Qeyd ediyimiz kimi, Bəğavinin “Məsabih əs-sünnə” adlı əsəri İslam aləmində böyük şöhrət qazanmışdır. Bu əsər həm ixtisar və təxric edilmiş, həm də haqqında şərh və haşiyə olmaqla 30-dan çox iş görülmüşdür (Çelebi, Hacı Xəlifə, m.1941, 1698-1702). Təsnif (sinifləndirmə, mövzuları və anlamları nizamlı olaraq təsnifetmə və sıraya düzmə) dövründən yığma dövrünə keçidin ilk nümunələrindən biri olması “Məsabih əs-sünnə”nin əhəmiyyətini artırmışdır. Əsərin ən diqqətəçarpan xüsusiyyəti isnaddakı ilk ravinin adının tamamilə silinməsi və hədislərin sihah və hisan olaraq iki ana başlıq altında bölünməsidir *(https://islamansiklopedisi.org.tr/serhus-sunne).*

Təsadüfi deyil ki, dünya miqyasında əlyazma əsərləri hər zaman xüsusi diqqət mərkəzində olmuş, bu istiqamətdə xüsusi tədqiqatçılar cəlb edilmiş və onlar əlyazma əsərlərini təhqiq edərək işıq üzünə çıxarmışlar.

Tədqiqatın əhəmiyyətini bir daha gücləndirən amillərdən biri də dünya kitabxanalarında İslam əlyazmalarının böyük önəm kəsb etməsidir. Şübhə yoxdur ki, əlyazmaların araşdırılması, bu irsin dirçəldilməsində və yayılmasında zəruridir.

Bir çox məsələlər və biliklər var ki, onları ana qaynaqlara və irs kitablarının orijinal mənbələrinə qayıtmaqla düzgün başa düşmək mümkündür. Buna yalnız orijinal mənbələri və ana qaynaqları tədqiq edərək, işıq üzünə çıxarmaqla nail olmaq mümkündür.

***Açar sözlər:*** *hədis, Bəğavi, Azərbaycan, “Məsabih əs-sünnə”, İslam, məzhəb, kitab, Quran, sünnə, ərəbşünaslıq.*

## Giriş

Dünya miqyasında əlyazma əsərləri hər zaman diqqət mərkəzində olmuş, bu istiqamətdə ərəbdilli əlyazmalar da xüsusi əhəmiyyət kəsb etmişdir. Bu əlyazmalar içərisində İmam Bəğavinin “Məsabih əs-sünnə” əlyazma əsəri müasir ərəbşünaslığımıza böyük töhfələr verir.

Belə ki, İmam Bəğavi siyasi, dini və elmi baxımdan önəmli bir məqama sahib olan Xorasan bölgəsində yaşamış bir alim olmuşdur. Zi-

rikli Bəğavinin doğum tarixini h/436, m/1044-cü il olaraq verməkdə əl-Həməvi ilə ziddiyyət yaratmışdır. Həməvinin verdiyi məlumat daha qədim məlumat olduğu üçün onun göstərdiyi doğum tarixini tərcih etmək həqiqətə daha uyğun olar.

Vəfat tarixinə gəlincə, Bəğavinin ölüm günü haqqında ziddiyyət olsa da, Kəttani və Kəhha kimi görkəmli alimlər onun h/516-cı (m/1122) ilin şəvval ayında Xorasanın Mərvərruz şəhərində dünyasını dəyişdiyi barədə həmfikirdirlər. Doğulduğu yerə nisbət verildiyi üçün ona "Bəğavi" deyilmiş və bu adla məşhur olmuşdur.

Qeyd olunmalıdır ki, dünya kitabxanalarında saxlanılan dəyərli əlyazma əsərlərindən biri də İmam Bəğavinin Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mövcud olan "Məsabih əs-sünnə" əsərinin qədim əlyazmasıdır. Ən nüfuzlu kitabxanalarda yer alan bu əsərin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda bir neçə fərqli nüsxəsi mövcuddur. Onların hər biri xəttatlıq, forma, şərh və izah, quruluş, əlyazma xəttinin müəllifləri və yazılma tarixi baxımından bir-birindən fərqlənir. Bir çox məsələlər və biliklər var ki, onları ana qaynaqlara və irs kitablarının orijinal mənbələrinə qaytarmaqla düzgün başa düşmək mümkündür. Buna yalnız orijinal mənbələri və ana qaynaqları tədqiq edərək işıq üzünə çıxarmaqla nail olmaq mümkündür. Bu cür orijinal mənbələri tədqiqata cəlb etmək üçün ərəbşünaslıq mühum rol oynayır. Bu nüsxələr klassik ərəb ədəbiyyatı əsasında yazılmışdır.

Bu əlyazmaların bəzisi 1269-cu ildə Əbdürrəhim ibn Mövla Yasinin, bəzisi 1333-cü ildə Hacı Mustafa Əfəndinin, bəzisi 1612-cı ildə Əbul-Xeyr bin Mənsurun dəst-xətti ilə qələmə alınmışdır.

1222-ci ildə yaşamış Məhəmməd Hüseyn bin Məsud əl-Bəğavinin "Məsabih əs-sünnə" adlı əsərinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda 7 ayrı-ayrı nüsxəsi vardır. Onlar ayrı-ayrı nüsxələr olmaqla yanaşı, eyni zamanda, hər biri ayrı-ayrılıqda əsərin tam versiyasını təşkil etməkdədir. Yəni "Məsabih əs-sünnə"nin əhatə etdiyi bütün mövzuları olduğu kimi özündə ehtiva edir. Hər bir əlyazma ayrı-ayrılıqda tədqiq edilərək əsər üzərində araşdırma aparılmışdır. Həmin əlyazma nüsxələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

### C-102\9056 kodu altında mövcud olan N:137 nömrəli nüsxə

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda **C-102\9056** kodu altında mövcud olan N:137 nömrəli əsərin ilk səhifəsi dua ilə başlayır. "Ya Rəbbim, öz lütf və kəraminlə asanlaşdır, çətin-

ləşdirmə”. Duadan sonra isə Rəsulullahın Quran oxuyub onun müqabilində qarşılıq almaqla əlaqədar hədis qeyd edilib. Abdullah bin Məsud və Ənəs bin Malik rəvayət edirlər: “Rəsulullah (s) və onun səhabələrinin zamanında Quran oxumağın haqqı dörd dinar yarım idi. Hər bir dinar isə 10 dirhəm idi. Bizim zamanımzda isə 45 dirhəm oldu. Kim bundan az qarşılıq müqabilində oxuyarsa, onun savabı nə oxucuya, nə də ki, oxunulan şəxsə çatar. Necə ki, Allah-Taala Qurani-Kərimdə buyurur: “Mənim ayətlərimi ucuz qiymətə satmayın”. Öncəki və sonrakı nəsil alimlər bu məsələdə həmfikir olmuşlar (Məhəmməd Hüseyn, h.990, 1). İkinci səhifədən yeddinci səhifəyə qədər əsərin əhatə etdiyi “kitab” və “bab”lar qeyd olunub. Əsərin ilk mövzusu “Kitabul-İman”la başlamış, son mövzusu isə “Babu savabi hazihil-ummət”lə bitmişdir.

Yeddinci səhifənin sonunda isə əlyazması əsərin əhatə etdiyi hədislərin sayını göstərir. “Məsabih əs-sünnə” əsərində dörd min dörd yüz səksən dörd (4 484) hədis vardır, onlardan 2434 hədis Buxari və Müslimdən “Sihah” başlığı altında, 2500 hədis isə diğər müəlliflərin əsərlərindən götürülmüş “Hisan” başlığı altında verilmişdir (Məhəmməd Hüseyn, h.990, 7).

Əlyazmanın 8-ci səhifəsindən isə “Bismillah” – Allaha həmd-səna edərək müəllifin (İmam Bəğavinin) sözlərinə giriş edilir. İmam Bəğavi həmd və sənadan sonra Rəsulullahın hədislərini vəsf etmiş, cəm etdiyi hədisləri hansı mühəddislərin əsərindən topladığını və neçə qismə böldüyünü açıqlamış, hədisləri qeyd edərək sənədlərini tərk etməsinin səbəblərini izah etmişdir (Məhəmməd Hüseyn, h.990, 8).

Üzərində tədqiqat apardığımz əlyazmasının səhifələri kənarında haşiyələr mövcuddur. Həmin haşiyələrin rolu hədislərdə keçən bəzi sözlərin izah və şərhindən ibarətdir.

Onuncu səhifədən isə artıq əsərin ilk mövzusu hesab edilən “Kitabul-İman” (minəs-sihah) başlayır. Əlyazmanın 977-ci səhifəsində sonuncu bab – “Babu savabi hazihil-ummət” ilə yekunlaşmışdır. Sonuncu bab bitdikdən dərhal sonra, xüsusi dairə içərisində əlyazmasının yazılma tarixi və katibi haqqında qısa məlumat verilmişdir. “20-Şəvval, 1177-ci hicri ilində Əbdürrəhim bin Məhəmmədəmin əz-Zaxudi tərəfindən yazılıb tamamlanmışdır” (Məhəmməd Hüseyn, h.990, 977).

Əsərin son iki vərəqi yeməkdən sonra oxunan dua, Rəsulullahın (s) öz qızı Fatiməyə (ə) öyrətdiyi xüsusi zikrlər və vitr namazının qunutunda oxunan dua ilə tamamlanmışdır.

Əsərin cildi karton üzərinə çəkilmiş dəridəndir. Cildin ətəkləri açılmasına baxmayaraq möhkəm və qalındır. Dərinin ortasında böyük bir medalyon, onun üst və alt nahiyələrində isə iki kiçik medalyon basılmışdır. Cildin kənarlarında dairəvi naxışlı haşiyə vardır. Nümunənin titul vərəqi dua və Rəsulullahdan rəvayət edilən hədislə başlamış, hədisin altında isə üçbucaq möhür vurulmuşdur. Möhürün sağ küncündə 16 170, aşağı hissəsində c-102 qeyd edilib. Sonra isə "Şabanla Yeganə arasında əqdi oxudum, əqdi oxuyan Əbdürrəhim bin Molla Yasin mahal qazisi, 9 ramazan, 1269-cu il qeyd edilib. Növbəti səhifədən 6 səhifə olmaqla əsərin ehtiva etdiyi kitab, bab və mövzuların adları qeyd olunub. Mövzular bitdikdə qırmızı xətlə çərçivəyə alınmış mətnlərdən sonra əlyazması əsərinin özündə neçə hədisi cəm etdiyi yazılıb. Əsər nəsx, qara, qalın xətlə yazılıb. Kağızın rəngi sarımtıl, uzunluğu 29 sm, eni isə 17 sm.-dir. Sətirlərin sayı 15-dir. Sətirlər qırmızı xətlə çərçivəyə alınmış haşiyə içərisində yerləşir. Mətnin hündürlük ölçüsü 20 sm, eni isə 10 sm.-dir. Əlyazmanın bütün səhifələrində mətnlər iki qırmızı xətlə çərçivəyə alınmışdır. Mətni əhatə edən çərçivənin hündürlüyü 20 sm, eni isə 10 sm.-dir. Səkkizinci səhifədə müxtəlif rənglərdən ibarət bəzəkli bir çərçivədə əsərin adı yazılmış, altından isə "Bəsmələ" ilə əsərə giriş edilmişdir. 10-cu səhifədən isə artıq əsərin ilk mövzusu – "Kitabul-İman" başlayır. Əsər Şərq pağenasiyası üsulunda səhifələnmişdir. Əlyazmanın ümumi qalınlığı 7 sm.-dir.

**C-608\9561-23460 kodu altında mövcud olan nüsxə**

C-608\9561-23460 kodu altında Əlyazmalar İnstitutunda saxlanılan Məhəmməd Hüseyn bin Məsud əl-Bəğavinin "Məsabih əs-sünnə" əsərinin bu nüsxəsinin ilk səhifəsi mündəricatla başlayır. Mündəricatda iki bab – "Babu zikril-Yəmən vəş-Şam", "Babu savabi Hazihil-Ummət" qeyd edilməyib. Buna baxmayaraq, əsərdə həmin bu iki bab tam olaraq öz əksini tapıb (haqqında danışdığımız bu əlyazmasında səhifələrin kənarında haşiyələr verilməmişdir. Çox nadir hallarda buna rast gəlsək də, şərhin kim tərəfindən verildiyinə dair məlumat olmadığı üçün şərhin kimə aid olduğu məlum deyildir).

Qeyd edək ki, əlyazmanın mündəricatında verilən bütün bab və kitablar mündəricatda olduğu kimi tərtiblə əsər daxilində sıralanmışdır. Sonda bəzi səhifələrin yerlərinin qarışması nəticəsində bir sıra bablarda da yerdəyişməsinə səbəb olmuşdur. 218, 219-cu vərəqlər ümumiyyətlə yoxdur.

214-cü vərəqdən "Babu Camiul-Mənaqib" başlayır, 215, 216, 217-ci vərəqləri əhatə edir. Araşdırma nəticəsində bu qənaətə gəldik ki, əlyazmadan itən 218, 219-cu vərəqlər hələ həmin bu babın hədislərini əhatə edən vərələrdən ibarətdir (Məhəmməd Hüseyn, İNV-1971, 214-217).

Əsərin sonuna yaxın bəzi səhifələrin yerlərinin qarışması aşağıdakı kimidir:

206-cı vərəqdən sonra 216 gəlir, yenidən 207 verilmədən 208, 209, 210, 211, 212, 213, 214, 215 yer alır sonra isə 207 verilib. 207-dən sonra 217 gəlir. Yuxarıda qeyd etdiyimiz kimi, 218, 219-cu vərəqlər yoxdur, bu səbəbdən, 217-ci vərəqdən sonra 220-ci, yəni sonuncu vərəq gəlir. Əsər ümumilikdə 220 vərəqdən ibarətdir (Məhəmməd Hüseyn, tarixsiz, 206-220).

Qeyd edilməlidir ki, son iki babda vərəqlər çox köhnə və cırılmış halda olduğundan, bir neçə hədis oxunmaz hala düşmüşdür, lakin buna baxmayaraq, bu əlyazması əsərini "Məsabih-əs-sünnənin" bütün babları əhatə etmiş tam orijinal nüsxəsi hesab etmək olar. Əlyazmanın üz qabığı yoxdur, ilk səhifəsinin yuxarısında "Fehrest əl-kitab" yazılıb. Həmin səhifə, eləcə də növbəti səhifə əsərin əhatə etdiyi mövzuların adlarını özündə cəm edir. Vərəqlərin hündürlüyü 29.50 sm, eni 18 sm təşkil edir. Mətnin hündürlüyü 23, eni isə 13 sm.-dir. Sətirlərin sayına gəlincə isə 25-dir. Əlyazmanın ümumi qalınlığı 5 sm.-dir. Mündəricatdan sonra titul vərəqi yer alır. Orada əsərin adı "Kitabul-Məsabih" yazılıb. Dördüncü səhifə isə "Bəsmələ" ilə başlayır və mövzuya giriş edilir, həmin səhifənin sonunda ilk mövzu – "Kitabul-iman" başlayır. Əsərin kolofonu yoxdur.

**C-538\9491 nömrəsi altında saxlanılan nüsxə**

"Məsabih əs-sünnə"nin M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan digər nüsxəsi isə 408 vərəqdən ibarət C-538\9491 nömrəsi altında tam nüsxədir. Əlyazmanın vərəqləri iki növ nazik qəhvəyi, qalın ağ kağızdan ibarətdir. Nazik qəhvəyi kağızdan olan vərəqlər çox incə və köhnədir. Sətirarası, həm də səhifə kənarlarında hədislərə haşiyələr verilmişdir. Qalın ağ kağızdan olan vərəqlərə gəlincə, onlar həm təzə, həm haşiyəsizdir. Vərəqlərin müxtəlifliyini bu şəkildə görmək olar: ilk 28 vərəq qəhvəyirəngli köhnə, nazik kağızlardan, sonrakı 9 vərəq ağrəngli qalın kağızdan, yenidən 4 vərəq nazik qəhvəyi kağızdan, yenidən növbəti 6 vərəq qalın ağ kağızdan, digər növbəti 11 vərəq nazik qəhvəyi rəngli kağızdan, yenidən növbəti 26 vərəq qalın ağ

kağızdan ibarətdir. Beləliklə, əlyazmanın yazıldığı kağızların müxtəlifliyi sona qədər bu üslubda davam edir. Demək olar ki, kitabın yarısından sonra qalın ağ kağızdan ibarət vərəqlərin sayı üstünlük təşkil edir. Qeyd edək ki, ağ kağızlarda yazılan hədislər irihəcmli hərflərlə qələmə alınmış, eləcə də sətirlər arasındakı məsafələr genişdir. Hərflər qara, qalın, yağlı xətlə yazılmışdır. Qəhvəyirəngli nazik kağızlar üzərində yazılan yazılara gəldikdə isə, qara rəngdə xırda hərflərlə yazılmışdır. Sətirarası və səhifələr kənarında sıx-sıx haşiyələr verilmişdir. Haşiyələr çox kiçikhəcmli hərflərlə verildiyi üçün bir çox yerdə oxunması çətin, bəzən isə mümkünsüzdür.

Əlyazmanın mündəricatı yoxdur. İlk səhifəsi "Bismillahir-Rəhmanir-Rəhim", Allaha həmd-səna, Peyğəmbərə (s) salavat və salamdan sonra, əsərin müəllifi İmam Bəğavinin sözlərinə keçid edilir: "Şeyx, İmam, Şeyxul-İslam, Nasirul-hədis, imamların öndəri, Sünnəni yaşadan, Əbu Məhəmməd əl-Hüseyn bin Məsud əl-Fərra, əl-Mərvəruzzi, əl-Bəğavi (Allah aqibətini xeyirli etsin) belə demişdir: Bunlar (hədislər) Peyğəmbərin (s) sinəsindən çıxmış ləfzlərdir (Məhəmməd Hüseyn, m.1333, 1). Sonra hədisləri topladığı əsərlər haqqında məlumat vermiş, hədislərin bölgüsünü açıqlamış, isnadlarının verilməməsinin səbəblərini izah etmişdir. Əlyazmanın ikinci səhifəsindən isə əsərin ilk kitabı – "Kitabul-İman" başlamışdır. Əlyazmanın sonunda Ənəs ibn Malikdən rəvayət edilən hədisi qeyd etdikdən sonra katib özü və kitab üzərində gördüyü işlərdən söz açır: Ənəs ibn Malikdən rəvayət edilir ki, Rəsulullah (s) buyurmuşdur: "Mənim ümmətimin məsəli yağışın məsəlinə bənzəyir, bilinmir əvvəli daha xeyirlidir, yoxsa sonu".

Hədisdən dərhal sonra katib yazır: "Sihah və hisan hədislərdən ibarət "Məsabih əs-sünnə" adlı kitabın düşmüş vərəqlərinin bərpası Allahın kömək və yardımı ilə onun ən zəif, ən ehtiyaclı, ən günahkar, onun rəhmətinə daha çox ehtiyacı olan qulu Taha billah, mərhum Şeyx Yasin əfəndibillah, Şamdan gəlmiş İsa Baba adlanan Peyğəmbərin qızı Rüqəyyə ilə Osmanın məşhur övladlarından olan mərhum Hacı Şeyx Yusif Əfəndi Xaniqahinin vasitəsilə dövrünün ən böyük fəzilətli alimlərdən sayılan Hacı Mustafa əfəndinin əsərinin üzərində Mübarək Rəcəb ayı, cümə günü, günorta çağı, miladın 1333-cü ilində tamamlanmışdır (Məhəmməd Hüseyn, m.1333, 408).

Əsərin üz qabığı qalın kartondandır, üzərinə isə dəri üzlük çəkilib. Üz qabığında "Haza kitabu Məsabuh əş-Şərif fi bəyani hədisin-Nəbəvi" yazılıb. Sol küncündə 1 698, alt tərəfində isə 1 333 və balaca mö-

hür vurulmuşdur. Möhürün içində ИНВ 1971 qeydi vardır. Əsərin titul vərəqi yoxdur. İlk səhifə üz qabığına parça ilə yapışdırılıb. İlk vərəqin birinci səhifəsi boşdur, yalnız üçkünc möhür və əsərin kodu mövcuddur. Növbəti səhifə isə "Bismillah" ilə başlayaraq mövzuya giriş edilmişdir. İkinci vərəqdən isə ilk kitab "Kitabul-İman" başlayır. Vərəqlərin hündürlük ölçüsü 30 sm, eni isə 19 sm.-dir. Mətn hündürlüyünə gəlincə, 19 sm, eni isə 12 sm təşkil edir. Sətirlərin sayı 15-dir. Əlyazmanın ehtiva etdiyi kitab, bab və fəsillərin adları isə bəzən qara rəngdə, qalın və böyük ölçüdə, bəzən də qırmızı xətlə verilmişdir. Əsərin səhifələri Şərq pagenasiyası üslubundadır. Əlyazmanın ümumi qalınlığı 6 sm.-dir. Onun kolifonu isə axırda sonuncu hədisdən dərhal sonra verilmişdir.

**C-373\9326-16854 kodu altında saxlanılan əlyazma nüsxəsi**

Kitabxanamızda mövcud olana digər nüsxə isə C-373\9326-16854 kodu altında saxlanılan əlyazma nüsxəsidir. Kitabın ilk vərəqi ehtiva etdiyi kitab və babların adları ilə başlamışdır. Dördüncü səhifədə ən çox hədis rəvayət edən səhabələrin adları və rəvayət etdikləri hədislərin sayları tərtiblə qeyd edilib. Mindən yuxarı hədis rəvayət edən səhabələr: Əbu Hüreyrə (4372), Abdullah bin Ömər, Ənəs bin Malik (2286), Xanım Ayşə (2215), İbni Abbas (1685), Cabir bin Abdullah (1455), Əbu Səid Xıdridir (1170). Bunun ardınca 1000-dən yuxarı hədis rəvayət edənləri nəzmə çəkərək qeyd etmişdir: "Yeddi nəfər səhabə var ki, Rəsulullahdan 1000-dən yuxarı hədis nəql etmişdir: Əbu Hüreyrə, Səd, Cabir, Ənəs, Aişə, İbni Abbas və İbni Ömər" (Məhəmməd Hüseyn, h.990, 4).

Əlyazmanın 3-cü vərəqi, yəni 5-ci səhifəsində əsərin adı böyük, qara, qalın, yağlı xətlə yazılıb. Nəzəri cəlb edən odur ki, mövcud əlyazmalarda əsərin adı "Məsabih-əs-Sünnə" olaraq qeyd edilmişdir, burada isə əsərin adı "Məsabih-əl-Muziyyə" "Əl-Mustəxrəc" olaraq yazılıb. Ardınca "Bu böyük şeyx, Muhyis-sünnə, Nasirul-Hədis, Şeyxul-İslam, Əbu Məhəmməd əl-Hüseyn ibn Məsud əl-Bəğavinin topladığı bir əsərdir (Allah ruhunu şad etsin, qəbrini nurlandırsın, bundan ona fayda versin)". Sonra əsərdə keçən hədislər üzərində qoyulmuş əlamətlər haqqında bilgi verilərək deyilir: "Bunları görkəmli şeyx, mühəddis Əbu Ömər Əhməd ibn Harun ibn Əhməd ibn Ati Şatibi (rəhmətullah) qoymuşdur". "Sihah" başlığı altında olan hədislərin üzərində "ta" hərfi olduqda, Malik bin Ənəsin "Müvətta"sından, "xa" hərfi olduqda Buxaridən, "mim" hərfi olduqda isə Müslimdən olduğunun göstəricisidir. "Hi-

san" başlığı altında olan hədislərdə isə üzərində "ta" hərfi olarsa, "Müvətta"dan, "dəl" hərfi olarsa, "Sünəni-Əbu Davud"dan, "tə" hərfi olarsa, "Tirmizi"dən, "nun" olarsa, "Sünəni-Nəsai"dən olmalarının göstəricisidir (Məhəmməd Hüseyn, h .990, 5).

Bu əsər əl-Fəqir Əbul-Xeyr ibn Mansurun dəst-xəttindən köçürülmüşdür.

Əlyazmanın 6-cı səhifəsi "Bəsmələ" və "həmd-səna"dan sonra müəllifin sözləri ilə başlayır. Bu ləfzlər Peyğəmbərin sinəsindən çıxmışdır (Məhəmməd Hüseyn, h.990, 23). Hədislərin növləri və üslubu haqqında məlumat verdikdən sonra elə həmin səhifədə də əsərin ilk mövzusu "Kitabul-İman" başlayır. Əlyazması 228 vərəqdən ibarətdir. Vərəqləri sarımtıl rəngdə orta qalın kağızdandır. Mətnin özü ortahəcmli rahat oxuna bilən nəsx xətti ilə yazılıb. Sətirarası məsafənin az olmasına baxmayaraq, hərflər bir-birinə qarışmayıb, eyni zamanda, sətirlərarası haşiyələrdə verilməyib (Məhəmməd Hüseyn, h.990, 22). Haşiyələr yalnız səhifələrin kənarlarında çox xırda hərflərlə yazılımış, bəzi yerlərdə hərflərin sıxlığı və həcminin kiçikliyindən, bəzən vərəqlərinin çox köhnə olması səbəbindən oxunmaz haldadır. Kitabın üz qabığı qalın cilddən, kağızları Şərq kağızındandır, xəttin növü isə nəsxdir (Məhəmməd Hüseyn, tarixsiz, 115). Bu kitabın yazılması h. 990-cı ildə "Cəmadiul-ula" ayı, mübarək cümə günü Əfəndi Nəmir ibn Salehin dəst-xətti ilə tamamlanmışdır. Sonuncu səhifənin axırında iri və qalın hərflərlə "Allahın salavat və salamı Məhəmmədə (s), onun ailəsinə və səhabələrinə olsun" yazılmışdır (Məhəmməd Hüseyn, Tarixsiz, 248).

Əsərin üz qabığı qalın karton üzərinə çəkilmiş dəri cilddən ibarətdir. Dərinin ortasına medalyon basılmışdır. Cildin iki kvadratxətli haşiyəsi vardır. Əsərin titul vərəqi yoxdur. İlk səhifəsi "Bəsmələ" ilə başlayır və mövzuların adlarını ehtiva edir. Əsərin vərəqinin hündürlüyü 29 sm, eni isə 20 sm.-dir. Mətnin hündürlük ölçüsü 23 sm, eni isə 14 sm.-dir. Mətn qırmızı xətlə çərçivəyə alınmışdır. Əsər Şərq üsulu ilə səhifələnmişdir. Əsərin sonunda isə iki kolofon verilmişdir. Ümumi həcmi 4,5 sm, sətirlər isə 27 sm.-dir (Məhəmməd Hüseyn, Tarixsiz, 40).

## Nəticə

İmam Bəğavinin "Məsabih-əs-sünnə" əsəri müasir ərəbşünaslığımızda elmi yenilik və araşdırmalarda istifadə oluna bilən zəngin və hərtərəfli mənbədir. Əsərdə müəllif mötəbər hədis kitablarından topladığı hədisləri xüsusi bəndlər altında verərək sistemləşdirmişdir. Bu-

xari və Müslimdən gətirdiyi hədisləri "Sihah", digər sünnə müəlliflərindən götürdüyü hədisləri isə "Hisan" başlığı altında vermişdir.

Nəticə olaraq qeyd etmək mümkündür ki, bu əsər Azərbaycan ərəbşünaslığının inkişafına, bu sahəyə dair ayrı-ayrı mövzular üzrə elmi axtarışların aparılmasına müəyyən köməklik göstərə bilər. Belə ki, aparılan təhlilin istiqaməti, əsas məqsəd və vəzifələri onun materiallarının və nəticələrinin müəyyən praktik əhəmiyyətini şərtləndirir. Bu baxımdan hədisşünaslıq, islamşünaslıq və dinşünaslıq fənləri onların gələcəkdə monoqrafiya, dərslik, dərs vəsaitlərinin və elmi əsərlərin hazırlanması və yazılmasında mühum yer tutur.

## ƏDƏBİYYAT


1. Çelebi, Hacı Xəlifə, h.1425\m.2004 "Kəşfüz-zünun", Daru ihyai turas əl-ərəbi, Lubnan-Beyrut, m.1941, [2 clddə], 2054-səhifə, c.2, s.1698-1702; Abdullah Muhammed Habşî, "Camiüş-şüruh vəl-havaşi, Əl-Məcməus-səqafi-Əbu Dabi, 2176 səhifə, s.1713-1722).
2. Katip Çelebi, Mustafa ibn Abdullah, İstanbul, 1971, "Keşfuz-zunun", M.E.B., Yayınları, [2 cilddə], 2054-səhifə, c. 2, s.1701,1702).
3. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, 1333.m, ."Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-538\9491, Katib: Hacı Mustafa əfəndi)
4. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, 1333.m, "Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-538\9491, Katib:Hacı Mustafa əfəndi)
5. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, 990.h, "Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-373\9326-16854, Katib: Əfəndi Nəmir ibni Saleh
6. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, h.1177, 20-Şəvval, "Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, Nüsxə: C-102\9056, s.1, Katib: Əbdürrəhim bin Məhəmmədəmin əz-Zaxudi)
7. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, İNV-1971, "Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-763/9716

8. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, tarixsiz, "Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-608\9561-23460, giriş)
9. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, Tarixsiz, "Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-762/9715
10. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, Tarixsiz, "Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-536\9489-23841
11. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, Tarixsiz, "Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: c-535\9488
12. Sancaklı, Saffet, Bursa, 1996, "Bağavi və Şerhu əs-sünnədəki Şərh Metodu", Uludağ Üniversitesi Sosyal Bilimler Enstitüsü Temel İslâm Bilimleri Anabilim Dalı Hadis Bilim Dalı (Yayımlanmamış Doktora Tezi), 253 səhifə, s.48).
13. https://islamansiklopedisi.org.tr/serhus-sunne)

*Гюлага Исмаилов*

## МЕСТО РУКОПИСНЫХ ЭКЗЕМПЛЯРОВ "МАСАБИХ-АС-СУННА" В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ АРАБОВЕДЕНИИ

### РЕЗЮМЕ

Известно, что изучение рукописных произведений было в центре внимания испокон веков. Экземпляры древних рукописей являются неотъемлемой частью исследований с точки зрения источниковедения. Поэтому исламские ученые тщательно изучали и анализировали не только религиозные темы, но и рукописные экземпляры, для достижения успеха при представлении тем современникам. С другой стороны, изучение рукописей на арабском языке отражает их отношение к религии и ее проблемам для каждого периода. Изучение религии, особенно ислама, всегда строилось на древних арабоязычных рукописях. Даже сегодня возможности методов исследования и изучения религии для арабистов обширны. Хотелось бы затронуть этот вопрос посредством исследования рукописных произведений. Несомнен-

но, древние рукописи рассматриваются в качестве источника всех тем, считаясь подлинным наследием.

Работа Абу Мухаммада аль-Багави "Масабих ас-Сунна", имеющаяся в Институте рукописей имени Мухаммеда Физули НАНА, также имеет особое значение с точки зрения привлечения к исследованию. Несомненно, она является одной из наиболее важных работ имама аль-Багави. "Масабих ас-Сунна" состоит из хадисов, которые он отобрал, извлекая документы из надежных источников хадисов. Известный европейский востоковед Брокельман, говоря об огромном значении этой работы в мире науки, сказал, что именно работе "Масабих ас-Сунна" аль-Багави обязан своей славой в исламском мире (Санджаклы, 1996, 48).

Подобия этой работы, написанной аль-Багави путем объединения хадисов, собранных им из различных источников, мы также видим в истории хадисов в трудах "Джамиул-усуль" Ибн аль-Асира аль-Джазири (606 г. по Хиджре, 1209 г. от Р. Х.) и "Рияд ас-Салихин" Мухйиддина ан-Навави (676 г. по Хиджре, 1277 г. от Р. Х.). Кятиб Челеби (1067 г. по Хиджре, 1677 г. от Р. Х.) хвалил произведение: "Самое прекрасное из произведений, написанных в сборнике, является "Масабих ас-Сунна" аль-Багави. Потому что его компоновка великолепна. Хадисы упорядочены. Если бы кто-то другой попытался переставить какую-либо главу, он бы не нашел места более подходящего, чем найденное аль-Багави" (Кятиб Челеби, 1971, 1701-1702).

Как мы уже отмечали, работа аль-Багави под названием "Масабих ас-Сунна" получила большую известность в исламском мире. Данная работа увидела более 30 изданий с сокращениями и тахриджами, комментариями и сносками (Челеби (Хаджи Халифе) 1941 от Р. Х., 1698-1702). Тот факт, что она является одним из первых примеров перехода от периода классификации (классификация и упорядочение тем и значений) к периоду комплектования, повысило значение "Масабих ас-Сунна". Наиболее заметной особенностью произведения является полное стирание имени первого раввина в иснаде и разделение хадисов на два основных заголовка - сихах и хисан *(https://islamansiklopedisi.org.tr/serhus-sunne).*

Не случайно в глобальных масштабах рукописные произведения всегда были в центре особого внимания, к этому направлению были привлечены специальные исследователи, которые изучали и выпускали в свет рукописные эпохи.

Одним из факторов, еще больше усиливающих значение исследования, является большое значение исламских рукописей в библиотеках мира. Нет сомнений в том, что изучение рукописей необходимо для возрождения и распространения этого наследия.

Существует множество вопросов и знаний, которые можно правильно истолковать, вернувшись к первоисточникам и оригиналам книг. Этого можно достигнуть только путем их изучения и публикации.

***Ключевые слова:*** *хадис, аль-Багави, Азербайджан, "Масабих ас-Сунна", ислам, вероисповедание, книга, Коран, сунна, арабоведение.*

***Gulagha Ismayilov***

## PLACE OF MANUSCRIPTS OF "MASABIH AL-SUNNAH" IN MODERN AZERBAIJAN ARAB STUDIES

## ABSTRACT

It is known that the study of manuscripts has always been in the spotlight from the past to the present. Samples of ancient manuscripts are an integral part of research from the point of view of source study. Therefore, in order to succeed in presenting topics during his lifetime to those people who lived with him in the same century, along with religious topics, Islamic scholars carefully studied and analyzed the manuscripts. On the other hand, the study of Arabic manuscripts in each period reflects their attitude towards religion and its problems. The study of religion, especially Islam, in all cases was based on ancient manuscripts in Arabic. And in modern times, the methods of research and study of religion are wide for Arab scholars. We would like to approach this issue by studying the manuscripts. Undoubtedly, ancient manuscripts are considered to be the true heritage and source of all themes.

The work of Imam Baghawi "Masabih al-Sunnah" at the Institute of Manuscripts named after M. Fuzuli of ANAS is also of particular importance in terms of involvement in research. One of the most important works of Imam Baghawi is the "Masabih al-Sunnah", which undoubtedly consists of hadiths selected from reliable sources of

hadiths. The famous European orientalist Brockelman, referring to the great importance of this work in the world of science, said that Baghawi's fame in the Islamic world is associated with his work “Masabih al-Sunnah” (Sanjakli, 1996, 48).

In the history of hadiths, we also see work of Ibn al-Athir al-Jazari “Jamiul-usul” (h. 606, g. 1209) and “Riyazu’s- salihin” by an-Nawawi (h. 676, g. 1277), which are similar to this work, which Baghawi wrote, combining hadiths collected by him from various sources. Katib Chalabi (h. 1067, g. 1677) said: “The most beautiful of the works written in the form of a collection is Baghawi's “Masabih”, because “It is beautifully composed. The hadiths were collected in a proper way. If someone else tried to change the location of any chapter, he would not have placed it in a more suitable place than Baghawi” (Katip Chalabi, 1971, 1701-1702).

As already noted, the work of Baghawi “Masabih al-Sunnah” gained great popularity in the Islamic world. This work was shortened and postponed, and more than 30 works were completed with comments and margins to it (Chalabi, Haji Khalifa, g. 1941, 1698-1702). The importance of “Masabih al-Sunnah” is one of the first examples of the transition from the period of classification (classification, ordering and sequencing of topics and meanings) to the period of collection. The most notable feature of the work is the complete removal of the name of the first rabbi in the isnad and the division of hadith into two main categories: sihah and hisan. *(https://islamansiklopedisi.org.tr/serhus-sunne).*

It is no coincidence that manuscripts have always been in the spotlight all over the world, special researchers have been involved in this field, and they have studied and published manuscripts for centuries.

One of the factors that heightens the importance of research is the importance of Islamic manuscripts in libraries around the world. Undoubtedly, the study of manuscripts is essential for the revival and dissemination of this heritage.

There are many questions and knowledge that can be correctly understood by going back to the original and authentic sources of the heritage books. This can only be achieved by researching and bringing to light the original and authentic sources.

***Keywords:*** *hadith, Baghawi, Azerbaijan, “Masabih al-Sunnah”, Islam, madhhab, book, Qur’an, Sunnah, Arabic studies*